# Qazilərə və şəhid ailələrinə qayğı daim diqqət mərkəzindədir

Azərbaycan xalqının zəfər qələbəsilə başa çatmış 44 günlük II Vətən Müharibəsi torpaqlarımızın 30 il davam edən və bir milyondan çox azərbaycanlının iztirabına, şəhər və kəndlərimizin tamamilə dağıdılmasına gətirib çıxaran işğalına son qoydu.

Vətən müharibəsində qazandığımız şanlı qələbə üçün torpaqlarımız uğrunda canlarını qurban vermiş şəhidlərimizə, qazilərimizə borcluyuq. Odur ki, onların bizlərə əmanət qoyduğu ailələr hər zaman diqqət və qayğı ilə əhatə olunmalıdır.

Xüsusilə, Prezident İlham Əliyevin şəhid ailələri və qazilərlə bağlı cari ilin yanvarın 25-də imzaladığı "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncamı deyilənlərin bariz nümunəsidir. Ölkə başçısının 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq öz təsirli nəticələrini verməkdədir.

Ərazilərimizin işğaldan azad edilməsində şücaət göstərmiş, şanlı tariximizin ən parlaq səhifələrini yazmış şəhidlərimizin bizə əmanəti olan ailələrinin qayğılarının həlli prioritet məsələlərdəndir. Bu istiqamətdə artıq zəruri tədbirlər həyata keçirilir. Mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri də "Yerli icra hakimiyyətləri haqqında" Əsasnaməyə edilmiş dəyişiklik nəticəsində ölkə Prezidenti cənab İlham Əliyevin 7 yanvar 2021-ci il tarixli Fərmanı ilə yerli icra hakimiyyətlərində yaradılmış "Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili" şöbəsinin yaradılmasıdır. Bu isə öz növbəsində onların çətinliklərinin qısa müddət ərzində həllinə şərait yaradacaq.

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin müvafiq əmri ilə bu fərman rayon icra hakimiyyətində icra edilmişdir. Yeni fəaliyyətə başlayan şöbəyə 1978-ci il təvəllüdlü, ali təhsilli, Ağdərə, Suqovuşan və Ağdam uğrunda gedən döyüşlərdə iştirak etmiş və "Suqovuşanın azad edilməsinə görə" medalı ilə təltif olunmuş Hidayətov Ramin Comərd oğlu rəhbərlik edir. Şöbənin böyük məsləhətçisi 1997-ci il təvəllüdlü, ali təhsilli, Talışkənd, Suqovuşan, Füzuli və Şuşa uğrunda döyüşlərdə iştirak etmiş və "Suqovuşanın azad edilməsinə görə" medalı ilə təltif edilmiş Abbasov Şahmurad Şahin oğludur.

Şöbə fəaliyyətə başladığı ilk gündən şəhid ailələri və müharibə iştirakçılarının problemlərilə yaxından tanış olmuş, onlara hər cür qayğı və mümkün köməklik göstərmişdir. Rayon icra hakimiyyəti tərəfindən xalqımızın Novruz bayramı ərəfəsində şəhid ailələri və müharibə əlilləri ziyarət olunmuş, onlara bayram sovqatı təqdim edilmişdir. Artıq hər bir şəhidin doğum günündə onun məzarının ziyarət edilməsi, ailəsi ilə əlaqə saxlanılıb problemləri ilə maraqlanılması rayon icra hakimiyyətində ənənə halını almışdır.

**«Qəbələ»**

# Qəbələ şəhidlərinin məzarları ziyarət edilmişdir





Vətən üçün, torpaqlarımızın azadlığı üçün canından keçən igid oğullar hər kəsin yaddaşında, qəlbində əbədi yaşayır. Qəhrəmanlar heç vaxt unudulmur.

Mart ayının 26-da Adəm Heydərovun və aprel ayının 10-u Tural Cəlilovun doğum günü olmuşdur.

Şəhidimiz **Heydərov Adəm Ikram oglu** 26 mart 2000-ci ildə Qəbələ rayonu, Bum qəsəbəsində dünyaya gəlib. Orta təhsilini Bum qəsəbə orta məktəbində alıb. 2018-ci ildə hərbi xidmətə yollanıb. Sentyabr ayının 29-da könüllü olaraq döyüşə yollanıb. O, Ağdərə uğrunda döyüşlərdə qəhrəmanlıqla şəhidlik zirvəsinə ucalıb. Bum qəsəbəsində dəfn olunub.

**Tural Cəllad oğlu Cəlilov** 1996-cı ilin aprel ayının 10-da Dızaxlı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra əsgəri xidmətə getmiş və əsgəri xidmətini başa vurduqdan sonra doğma kəndinə qayıdaraq təsərrüfat işləri ilə məşğul olmuşdur.

Hər iki valideynini itirmiş Tural qardaşı İlkin Cəlilovla birgə yaşayırdı.

2020-ci ilin sentyabrın 21-də Tural Cəlilov hərbi səfərbərliklə yenidən orduya yollandı.

Əvvəlcə Goranda hərbi təlimlərə başladı. Əlbəttə Tural bilirdi ki, bu təlimlər erməni vandalları ilə əks-hücum təlimləridir və müharibə labüddür. Tural Cəlilov sentyabrın 27-dən - 44 günlük müharibənin elə ilk günlərindən döyüşlərə qatılmışdır.

Tərtər və Ağdərə istiqamətində döyüşlərdə iştirak etmiş, igidliklə döyüşmüşdür.

Oktyabrın 7-də şəhid olmuşdur. Onun nəşi öz doğma kəndinə gətirilmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur.

Hər iki şəhid ölümündən sonra «Vətən uğrunda» medalı ilə təltif olunmuşdur.

Onların doğum günlərində rayon icra hakimiyyətinin, təhsil şöbəsinin nümayəndələri, şəhidin təhsil aldığı kənd məktəbinin kollektivi və ailə üzvləri şəhidlərin məzarlarını ziyarət etmiş, şəhidlərin məzarları üzərinə gül dəstələri qoymuş, ruhlarına dualar oxunmuşdur.

**«Qəbələ»**

# Mübarək Ramazan ayı

“Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi. Bəlkə, (bunun vasitəsilə) siz pis əməllərdən çəkinəsiniz!”

(Əl Bəqərə surəsi, 183-cü ayə)

İslamın müqəddəs bayramları içərisində orucluq bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 623-cü il) başlanır. Oruc Ramazan ayında tutulduğu üçün ona “Ramazan orucu” da deyirlər.

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfaqətli və müqəddəs ay hesab edilir. Onu məcazi şəkildə “on bir ayın sultanı” da adlandırırlar, çünki bu ayın gecələrinin birində müqəddəs kitabımız olan Qurani Kərim nazil olmuşdur. Həmin gecəyə “qədir” və ya “ehya” gecəsi deyilir. Qədir gecəsinin konkret olaraq hansı günə təsadüf edildiyi bilinmir. Bununla bağlı müxtəlif rəvayətlər vardır. Amma ümumi fikir belədir ki, qədir gecəsi Ramazan ayının son on gecəsindən biridir, həm də tək günün gecəsidir. İslamşünasların fikrincə, bu gecə Ramazan ayının 19, 21, 23, 25, 27-sinə təsadüf edir. Müqəddəs Qurani Kərimin “Qədir” surəsində qədir gecəsi haqqında belə yazılmışdır: “Biz bu gecə həqiqətən qüdrət, əzəmət hədiyyə etmişik, bu gecə min aydan da qüdrətlidir, mələklər aşağı enərək, Allahın əmrini gözləyirlər, bu gecə şəfəqin doğmasına qədər aləmdir, sübhdür”.



Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani Kərimdə yazılır: “Sübh açılınca, ağ sap qara sapdan fərqlənməyincəyə qədər yeyib-için, sonra gecəyə kimi orucunuzu tamamlayın”.

Qeyd edək ki, müsəlmanlar ən mühüm ibadətlərini, o cümlədən orucu və həcci, Fitr və Qurban bayramlarını hicri-qəməri təqvimine əsasən yerinə yetirirlər.

Ramazan ayı orucluq, insan nəfsinin paklığı, eyiblərin və naqisliyin islah olunması, ağıl, iman və iradənin saflaşması dövrüdür. İnsan bu ayın dua və ibadətləri ilə eyiblərdən saflığa, saflıqdan kamilliyə doğru gedir. Bu ay ruhun tərəqqisi, Allaha tərəf pərvaz etməsidir.

Orucluq bayramı ölkəmizdə Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli “Azərbaycan Respublikasının bayramları haqqında” Qanununa əsasən dövlət səviyyəsində qeyd olunmağa başlanmışdır.

2021-ci il üçün Ramazan ayı aprelin 14-nə düşür. 13 may (1 Şəvval) Fitr bayramıdır.

Allah orucunuzu qəbul etsin.

# Atılan addımlar və qəbul olunan qərarlar Azərbaycanın davamlı inkişafını təmin edir

Azərbaycan Respublikasının davamlı və dinamik inkişafını təmin edən ən əsas faktorlardan biri regionların balanslı və proporsional sosial iqtisadi inkişafına nail olunmasıdır. Beynəlxalq təcrübədə də hər bir ölkənin sistematik, davamlı və balanslı şəkildə inkişaf etməsini müəyyən edən ən vacib göstəricilərdən biri ölkə regionlarının iqtisadi və sosial inkişaf səviyyəsi hesab edilir. Respublikamızda bu sahədə də mühüm işlər görülmüşdür. Cənab prezidentin bu sahədə verdiyi bütün sərəncamlar davamlı olaraq ardıcıl surətdə həyata keçirilir. Bu gün də bu layihələr ətrafında birləşən və bu layihələri bizimlə bərabər icra edən ölkələrin sayı artmaqdadır. Azərbaycan dövləti öz maraqlarını daim diqqət mərkəzində saxlayır, bir çox dövlətlərlə iqdisadi və siyasi əməkdaşlıq edir, dövlətin müstəqilliyi naminə öz maraqlarını bütün sahələr üzrə diqqət mərkəzində saxlayır və qoruyur. Ümumiyyətlə, bütün sahələrdə dövlətin mənafeyi nəzərə alınmaqla islahatlar davamlı olaraq aparılır. Bu da onu deməyə əsas verir ki, respublikamız dünya dövlətləri arasında aparıcı siyasi qüvvəyə malikdir. Azərbaycanın apardığı islahatlar beynəlxaq aləmdə öz nüfuzunu göstərir və bir cox ölkələr Azərbaycanın bu təcrübəsindən istifadə edir. Azərbaycanın iqtisadi potensialı daim artmaqdadır. Belə ki ordu quruculuğu, vətəndaşların gündən-günə maddi rifahının yaxşılaşdırılması, neft və aqrar sahədə inkişafı Azərbaycanı qabaqcıl ölkələr sırasına çıxarmışdır. Ölkəmizdə olan təbii sərvətlər, cənab prezidentin irəli sürdüyü məqsədyönlü siyasət nəticəsində bir çox ölkələri Azərbaycana müxtəlif sahələr üzrə sərmayə qoymağa və onunla əməkdaşlıq etməyə dəvət edir. Artıq ölkəmizin iqtisadiyyatına qoyulan investisiyalar dayanmadan artır. Azərbaycan günü-gündən inkişaf edir. Bu da Azərbaycanın qüdrətli və dayanıqlı bir dövlət olmasının əyani sübutudur.

**Cavid MƏMMƏDNƏBİYEV,**
**Qəbələ RTŞ-nin aparıcı məsləhətçisi.**